

# Ordumuz işğal altındakı torpaqlarımızı azad etmək gücündə və qüdrətindədir

**Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri yenidən genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması düşmən ölkənin bir daha qeyri-konstruktiv mövqeyini, təxribatları, sərsəm bəyanatları ilə danışıqlar prosesinin davam etdirilməsində maraqlı olmadığını təsdiqlədi. Şübhəsiz ki, hər zaman olduğu kimi, bu dəfə də Azərbaycan vəziyyətə uyğun adekvat tədbirlər həyata keçirdi və işğalçının mövqelərini susdurmaq üçün əks-hücum əməliyyatına başladı. Qısa müddət ərzində düşmən mövqeləri darmadağın edildi, bir sıra kəndlərimiz, həmçinin bəzi yüksəkliklər işğaldan azad olundu.**

Hazırda qəsbkarı yerinə oturdan rəşadətli Ordumuz torpaqlarımızın işğaldan azad olunması istiqamətində həyata keçirdiyi əməliyyatları uğurla davam etdirir. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli iradəsindən, xalqımızın möhtəşəm dəstəyindən ruhlanan Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində düşmənə sarsıdıcı zərbələr vurur.

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddətdə davam edən təcavüzü və təxribatları nəticəsində respublikamızın təqribən 20 faiz ərazisi işğal edilib, 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Erməni terrorçuları tərəfindən zəbt olunan Dağlıq Qarabağ, habelə ona bitişik rayonlarımızda çox sayda tarix və mədəniyyət abidələri, muzeylər, kitabxanalar, klub və mədəniyyət müəssisələri talan və məhv edilib.

Yeri gəlmişkən, Ermənistanın Azərbaycan və dünya mədəniyyətinə qarşı vandalizm aktları "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" UNESCO-nun 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasına, "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına və digər beynəlxalq sənədlərə tamamilə zidd olması faktını da diqqətə çatdırmaq istərdim.

Onu da deyim ki, Ermənistanın işğalçılıq və təcavüzkarlığı BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, BMT Baş Assambleyasın 2006 və 2008-ci illərdə qəbul olunan "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların müvafiq sənədləri ilə sübuta yetirilib. Lakin bütün bunlara baxmayaraq, bir sıra dövlətlər tərəfindən Ermənistanın təcavüzkar siyasətinə son qoyulması dəstəklənmək əvəzinə, işğal faktına ikili standartlarla yanaşılır. Ümumiyyətlə, 30 ilə yaxındır ki, bəzi ölkələr bu məsələyə öz maraqlarına uyğun münasibət göstərib. ATƏT-in Minsk qrupunun həmsədrlərinin tutduğu mövqe isə daha çox təəssüf doğurub. Onlar fəaliyyəti dövründə heç zaman işğalçı Ermənistana təzyiq göstərməyib, əksinə, tərəflər arasında bərabərlik yaratmağa çalışıb və ümumiləşmiş bəyanatlar səsləndiriblər. Azərbaycanın çağırışlarına baxmayaraq, həmsədrlər erməni tərəfinin təxribatlarına, beynəlxalq cinayətlərinə münasibət bildirməyiblər.

Bu haqsız, ədalətsiz mövqe qarşılığında ölkəmizin səbri tükənmişdi. Bax, elə buna görə də sentabrın 27-də Ermənistan silahlı qüvvələrinin yenidən genişmiqyaslı təxribatına qarşı Azərbaycan işğalçının mövqelərini susdurmaq üçün əks-hücum əməliyyatına başladı, işğal altındakı əzəli ərazilərimizi qəsbkarlardan azad etməyə başladı.

Bəli, bu gün qəti əminliklə qeyd edirəm ki, Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad etmək gücündə və qüdrətindədir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi: "Azərbaycan heç bir təxribata əl atmır. Sadəcə olaraq, öz maraqlarını müdafiə edir, mövqeyini dəstəkləyir. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır". Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

***Əhməd RAMAZANOV,***
***Sabirabad Regional Mədəniyyət Mərkəzinin rəisi***

Xalq qəzeti 2020.- 9 oktyabr.- S.6.